**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNSAN: MƏNƏVİ-DİNİ ÖZÜNÜTƏSDİQ KONTEKSTİNDƏ

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı**:** **Məmmədtağı Həsən oğlu Rzayev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2021**

Dissertasiya işi Bakı Slavyan Universitetinin "Azərbaycan tarixi və ictimai elmlər" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Yusif İman oğlu Rüstəmov** |
| İkinci elmi rəhbər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Cahangir Rza oğlu Məmmədov** |
| Rəsmi opponentlər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Azər Xoşbəxt oğlu Mustafayev** |
| | Fəlsəfə elmləri doktoru, professor<br>**Etibar Əli oğlu Nəcəfov** |
| | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**İlqar Ağaməd oğlu Abdullayev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>__________________ | Fəlsəfə elmləri doktoru, professor<br>**İlham Ramiz oğlu Məmmədzadə** |
| Dissertasiya şurasının elmi katibi:<br>__________________ | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Sevinc Arif qızı Həsənova** |
| Elmi seminarın sədri:<br>__________________ | Fəlsəfə elmləri doktoru, professor<br>**Əlikram Mirhəsən oğlu Tağıyev** |

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İş bütün dövrlərdə öz aktuallığını saxlayan insan probleminə, onun müxtəlif dini və fəlsəfi sistemlər çərçivəsində özünütəsdiqi məsələlərinə həsr edilmişdir. Bu problem bəşər tarixinin bütün dövrlərində mütəfəkkirlərin dönə - dönə müraciət etdiyi problemlər sırasındadır. Elə problemin də aktuallığı ondadır ki, sanki bu problem bəşəriyyət və cəmiyyətlə bərabər inkişaf edir və təbiidir ki, insanın təkamülü ilə bərabər yeni çalarlar qazanır. Bu çalarlar hər bir tarixi dövrdə yenidən tədqiq olunmasını istəyir.

Müasir dünyamızın sürətlə dəyişməsi qlobal xarakterli problemləri daha da aktuallaşdırır. Getdikcə insan faktoru bəşəriyyət üçün ən ümdə məsələyə çevrilir. İnsan fəaliyyətinin mənəvi, əxlaqi, sosial, demoqrafik, siyasi, iqtisadi, ekoloji və s. aspektləri arasındakı sıx əlaqələr daha da inkişaf edir. Bu bağlılıq fonunda tədqiq olunan problemin elmi-fəlsəfi dərki kifayət qədər maraqlı və aktual görünür.

Müasir Qloballaşma, inteqrasiya, elmin, texnikanın inkişafı dövründə dünya sanki kiçilib, görünən olub. Indi dünyanın hər hansı bir nöqtəsində baş verən istənilən əhəmiyyətli, taleyüklü böyük bir hadisə dünyanın digər nöqtəsində də hiss edilməkdədir. Əgər keçmişdə müxtəlif mədəniyyətə, dini dünyagörüşə və həyat tərzinə malik insanların təması əsasən sərhəd zolaqlarında mümkün olurdusa, Qloballaşan dünyada bu təmaslar istər virtual, istərsə də fiziki dünyada hər zaman, hər an baş verir. Və təbiidir ki, bu hal insan problemini, insan özünütəsdiqini aktuallaşdırmaqla müxtəlif dini və fəlsəfi sistemlərdə insan probleminə, əxlaqın ümümbəşəri və dini normalarına, əxlaqa müxtəlif yanaşmalara, xeyir, şər, rəhimlilik və bu kimi digər məsələlərə yeni baxış tələb edir. Qloballaşma şəraitində mədəniyyətlərarası əlaqələrin yeni səviyyəyə yüksəlməsi müsbət töhfələri ilə yanaşı, milli-mənəvi və əxlaqi dəyərlərin qorunması məsələsini də elmi gündəmə gətirir. Bu kontekstdə, əlbəttə, ümumiyyətlə, mənəvi-dini dəyərlərin tədqiqi daha çox aktuallıq kəsb etmiş olur. Bu bağlılıqda dinin müasir dünyada

oynadığı funksiyalarla bağlı önəmli məqamları vurğulamaq lazımdır.

Əvvəllər olduğu kimi, müasir dövrümüzdə də dini dünyagörüş cəmiyyətin mənəvi həyatına ciddi təsir göstərir. Bu baxımdan insanın mənəvi-əxlaqi dəyərlərinin formalaşmasında dini faktorun yeri və rolu məsələsinin aktuallığı böyük önəm daşımaqdadır. Digər tərəfdən, müasir cəmiyyətlərin din və mədəniyyət sahələrinin bir-biri ilə vəhdətdə olması faktı da insanın mənəvi özünütəsdiqi probleminin müxtəlif aspektlərdə təhlilini zəruri edir.

Dini məqam qədimliyi və gizliliyi ilə seçilir, həm də adətən, yeniləşməyə kəskin reaksiya verir, insanın mənəvi dəyərlərinin sabit qalmasına çalışır ki, bu da sürətlə dəyişən müasir dünya reallıqları ilə dini dünyagörüş arasında mürəkkəb və ziddiyyətli münasibətlərin yaranmasına səbəb olur. Məhz buna görədir ki, bəzi hallarda, dinə qarşı loyal olmaq istəməyənlərin çoxalması özünü göstərir. Eyni zamanda, missionerlik və dini təbliğatın intensivliyinin yüksəldiyi də müşahidə olunmaqdadır. Müasir dövrümüzdə dini təbliğat zamanı informasiya texnologiyalarının bütün növlərindən istifadə edilir, missionerlər dünyanın istənilən guşəsinə baş çəkə bilirlər. Bu mənada sanki, dini təbliğat da qloballaşır, müxtəlif dini təlimlər arasında mübarizə yeni çalarlar kəsb edir. Bəzi hallarda bu mübarizə kəskin qarşıdurmalarla, əks-təbliğatın radikal formaları ilə müşaiyət olunur. Söhbət insanın dini-mənəvi özünütəsdiqindən gedirsə, bu cür vəziyyətin yaranması insanların düzgün həyat mövqeyi seçməsində bəzi çətinliklər yarada bilir. Müxtəlif təriqətlərin aktivləşməsi nəticəsində, əsasən, gənclər mənəvi-əxlaqi cəhətdən ziddiyyətli məlumatlar əldə edirlər. Onları öz təsiri altına alan təriqətlər fərd-cəmiyyət münasibətlərində süni problemlərin yaranmasına çalışırlar. Gələcəkdə insanın mənəvi-əxlaqi dəyərlərə münasibəti bu kimi təsirlərlə təhrif oluna bilər. Çünki din kimi həssas bir sahənin əsl mənasını yanlış anlamaq ehtimalı artır. İnsanın özünütəsdiqinin tarixi dinamikasının bu cür pozulması qətiyyən qəbuledilməzdir. Dini baxışların yeniləşməsi insanda insaniliyin daha dərin mənalarını tapmaq kimi mürəkkəb bir proseslə səciyyələnir. Bu cür dini təcrübə ciddi sosial əsasa

malikdir. Daha dəqiq ifadə etsək, bu qlobal miqyasda insan cəmiyyətinin təşəkkülü məsələsinin xeyli aktuallaşması anlamına gəlir. Problemə bu aspektdə yanaşma kifayət qədər yeni məqamları ortaya çıxarır və aktuallaşdırır. Müasir qloballaşan dünyada bir çox problemlər ümumbəşəri xarakter daşıdığından birgə çıxış yolları axtarnaq ehtiyacı get-gedə daha da güclənməkdədir. Bu problemləri birgə həll etmək üçün insanların ortaq mənəvi-əxlaqi dəyərlərə sahib olmalarına ehtiyac yaranır.

Qloballaşma həm də etnik şüurun qabarmasına, canlanmasına səbəb olmuşdur. Bu hal insanların milli ənənələri itirmək təhlükəsindən narahat olmağa başlaması ilə müşayət olunur. Milli özünəməxsusluğu itirməmək istəyi mənəvi-əxlaqi dəyərləri daha həssas mövzuya çevirir. Müxtəlif mənəvi-əxlaqi dəyərləri olan dünyamızda bu dəyərlərin çəkişməsi, müqayisəsi, ayrı-ayrı hissələrə bölünməsi müşahidə olunur. Mənəvi-əxlaqi dəyərlərin bu səviyyədə parçalanması insanın bütün mənəvi fəaliyyət sahələri arasında əlaqələrinin inkişafını tələb edir. Çünki dünyanı insanların həmrəyliyi, əməkdaşlığı, qarşılıqlı yardımı, mənəvi parçalanma prosesinin dayandırılması xilas edə bilər. İnsanın bütövlüyü ilə dünyanın bütövlüyü arasında harmoniyanın yaranmasına nail olmaq dövrün tələbidir. Ona görə də bu gün din və fəlsəfənin, din və incəsənətin, din və elmin “ittifaqı” məsələsi daha da aktuallaşmışdır.

Bu prizmadan baxdıqda dini-mənəvi dəyərlərin insanın özünütəsdiqində rolu məsələsinin daha böyük önəm kəsb etdiyini vurğulaya bilərik. Din insanları və sivilizasiyaları təkcə mənəviyyatla deyil, həm də ənənə ilə, ruhaniliklə birləşdirir. Din fəlsəfə və ya digər elmlərdən fərqli olaraq, hər kəsin əlinin çatdığı bir sahədir. O, sadəcə insanlıq etalonu yaratmamış, xalq kütlələrini qızıl vədlərlə aldatmamış, həm də etik təkmilləşmə prosesi olmuşdur. Bu səbəbdən də mənəvi ideal və mənəvi həyatın rolunun artdığı müasir şəraitdə dini faktor da təbii ki, kənara qoylmamalıdır.

Bütün bunların fonunda mövzunun aktuallığına aid olan başqa bir vacib məqamı da unutmaq olmaz. İndi elmlərarası inteqrasiya xeyli intensivləşib, faktiki olaraq, bütün elm sahələri arasında

“körpü” vardır. Bu vəziyyət bütövlükdə insan fəaliyyətinin müxtəlif sahələri arasında sıx bağlılığın olması ilə izah edilir. Bu gün, dini, fəlsəfi, elmi və s. fəaliyyət sahələri sanki, bütövün bir-birindən ayrılmaz sferaları funksiyasını yerinə yetirirlər. Bu sferaların hər biri üçün insan amili önəmli olduğundan mənəvi-əxlaqi, dünyagörüşü və kreativ xarakterli digər məsələlərin aktuallığı artır. İnsan idrakı praktiki fəaliyyətlə birgə dini-mənəvi özünütəsdiqin əhəmiyyətini qəbul etməli olur. Həmişə olduğu kimi, hərtərəfli insan formalaşdırmaq problemi bütünlükdə bəşərin vacib vəzifəsi olaraq qalmaqdadır. Cəmiyyətimiz üçün də bu məsələ xeyli aktualdır: *“Azərbaycan xalqının böyük tarixi nailiyyətidir ki, bütün təsirlərə baxmayaraq, biz öz dilimizi, dinimizi, milli-mənəvi dəyərlərimizi qoruyub saxlaya bilmişik. Lakin qloballaşma çağırışlarına məruz qalan ailə artıq XXI əsrdə bu məsələlərin həllində əvvəllər oynadığı rolu, sözsüz ki, oynaya bilmir. Milli dəyərlərlə əlaqəli problemlər üzərində dayanaraq xüsusi qeyd etmək istərdim ki, bunların tam həllini tapması müstəqil respublikamızın vətəndaşlarının tərbiyəsi baxımından müstəsna əhəmiyyətə malikdir. Milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması və zənginləşdirilməsi ailədən də çox cəmiyyətdən asılıdır”*[1].

İstər dunya çapında, istərsə də Azərbaycanda bir sıra tədqiqatçılar[2] hind-buddist, çin-konfutsi, iudaizm, xristianlıq, ərəb-

---

[1] Mehdiyev, R. Ə. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // R. Ə. Mehdiyev. – Bakı: Fəlsəfə və Sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal, - 2009. № 4(28), s.16.

[2] Aslanova, R. İslam və mədəniyyət / R. Aslanova. – Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, - 2002. - 405 s.; Bünyadzadə, K. Y. Islam fəlsəfəsi: tarix və müasirlik / K. Y. Bünyadzadə. – Bakı: “ Çaşıoğlu”, - 2010. -154 s.; Bünyadzadə, K. Y. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk / K. Y. Bünyadzadə. – Bakı: - 2006. - 242 s.; Əlizadə, A. A. Xristianlıq fəlsəfəsi / A. A. Əlizadə. – Bakı: Təknur, - 2006. - 283 s.; Həsənov, H. Qərb-Şərq münasibətləri xristian və islam baxımından / H. Həsənov, T. Baharçı. – Bakı: Təknur, - 2005. -232 s.; Mehdiyev, R. Ə. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // R. Ə. Mehdiyev. – Bakı: Fəlsəfə və Sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal, - 2009. № 4(28), s. 9-32.; Məmmədov, A. İslamda əsas sosial-fəlsəfi anlamlar / A. Məmmədov – Bakı: Nafta-Press, - 2001. - 180 s.;

müsəlman və digər dini sistemlərin mədəni ənənələrinin kulturoloji özəlliklərini tədqiq etmişlər. Xüsusilə ərəb-müsəlman mədəniyyət ənənələri, bütövlükdə müsəlman mədəniyyətinin təkamül tendensiyaları, onun digər dini-mədəni faktorlarla əlaqələri məsələsi təhlil edilmişdir. Son zamanlar İslam mədəniyyətinin qloballaşma, fəlsəfə tarixində yeri və rolu[3], onun cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin formalaşmasında oynadığı rol, insanın mənəvi inkişafına verdiyi dəyərlər və s. kimi problemlərin tədqiqi intensivləşmişdir[4].

---

Rüstəmov, Y. İ. Mövlanə Cəlaləddin Ruminin sufilik fəlsəfəsi / Y. İ. Rüstəmov – Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, - 2002. - 236 s.; Salih ər-Reys, İ. M. Islam idarəetməsi və şəriətdə ona nəzarət üsulları / İ. M. Salih ər-Reys. – Bakı: Ozan, - 1998. - 56 s.; Григоренко, А. Эсхатология, милленаризм, адвентизм / А. Григоренко - Санкт-Петербург: Наука, - 2004. - 262 с.; Демьяненко, С. П. Религиозно-философские аспекты мировоззрения современного дзэн-буддиста:/ Диссертация на соискание ученой степени кандидата философских наук / - Москва: -1993. - 108 с.; Коноплёв, Н. Н. Риск формирования религиозного самосознания личности в современном обществе / Н.Н. Коноплёв, Л.С. Коноплёва // Мир педагогики и психологии. - 2017. № 1 (6), - с. 81-106.; Пятигорский, А. Введение в изучение буддийской философии /А. Пятигорский. - Москва: Новое литературное обозрение, - 2007. - 288 с.; Торчинов, Е.А.Введение в буддологию. Курс лекций./Е. А. Торчинов.- Санкт - Петербург: Санкт-Петербургское философское общество, -2000. - 304 с.

[3] Məmmədzadə, İ. R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında / İ. R. Məmmədzadə - Bakı: “Təknur”, - 2009. - 226 s.; Алиев, М. А. Духовно-историческое взаимодействие ислама и христианства: / Дис. док-ра филос. наук / - Баку, - 2008. - 241 с.; Кулиев, Э. Р. Глобализация. Коран: Дис. канд. фил. наук / - Баку, - 2006. - 182 с.; Кулиев, Э. Р. Коран и глобализация: в поисках гуманистических идеалов / Э. Р. Кулиев. – Баку: «Абилов, Зейналов и сыновья», - 2005. – 241с.; Чумаков, А. Н. Глобализация. Контуры целостного мира / А.Н. Чумаков. - Москва: «Проспект», - 2009. - 432 с.

[4] Bünyadzadə, K. Y. Orta əsrlərdə İslam Şərqində kamil insan problemi //– Bakı: Fəlsəfə və Sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal, - Bakı: - 2009, № 3(27), - s. 94-108. ; Əliyev, R. Y. İslam / R. Y. Əliyev. – Bakı: İrşad, - 2000. - 380 s.; Məmmədov, A. İslamda əsas sosial-fəlsəfi anlamlar / A. Məmmədov. – Bakı: Nafta-Press, - 2001. - 180 s.; Paşazadə, Ş. A. İslamda ümmət və şüubilik / Ş. A. Paşazadə. – Bakı: İrşad İslam araşdırmaları mərkəzi. Bilik, - 1992. - 127 s.; Rüstəmov, Y. İ. Siyasi-hüquqi təlimlər tarixi / Y. İ. Rüstəmov. – Bakı:

İnsanın dini-mənəvi özünütəsdiqinin müxtəlif aspektlərdə tədqiqi bir çox tədqiqatçıların: Abayev N. N., Bünyadzadə K. Y., Vindelband V., Demyanenko S. P., Əliyev R., Yeliseyev V., Kanitkar V. P., Litman A., Nadvi A. A., Nurbaxş C., Panfilova T. N, S. Xəlilov və başqalarının yaradıcılığında öz əksini tapmışdır. Xristianlıq, İslam, Buddizm və İnduizmin müqayisəli təhlilinə həsr edilən fəlsəfi tədqiqatların sayı artmaqdadır. Bu tədqiqatlar bir qayda olaraq qloballaşma, cəmiyyətlərin inteqrasiyası və vahid bəşəri cəmiyyətin yaradılması aspektində aparılır. Rusiyada professor A. N.Çumakovun, Azərbaycanda S. Xəlilov, H. Həsənov, M. Əliyev, İ. Məmmədzadə, K. Bünyadzadə və digərlərinin işlərini qeyd etmək olar. Bu tədqiqatlarda daha çox keçmişin görkəmli mütəfəkkirlərinin konsepsiyaları, varlıq, insan təbiəti, din və fəlsəfənin qarşılıqlı təsirləri təhlil edilir. Bunlarla yanaşı, qlobal sivilizasiyanın formalaşma imkanlarının fəlsəfi təhlili diqqət mərkəzinə gətirilir. Məsələnin bu cür qoyuluşu mexaniki olaraq sivilizasiyalar, dinlər və sosial-mədəni sistemlər arasında qarşılıqlı əlaqə və dialoq problemini önə çıxarır. Bu müstəvidə insanın dini-mənəvi özünütəsdiqinin fəlsəfəsinin tədqiqinə ehtiyac yaranır. Bütövlükdə, problem bütün dini təlimlərin tarixi təkamülü, onların qarşılıqlı müqayisəsi, sistemli olaraq insanın mənəvi-etik keyfiyyətlərində oynadıqları rolu aspektində az tədqiq edilmiş, insanın dini-mənəvi özünütəsdiqinin müxtəlif dini təlimlərin insan tərbiyəsi metodlarının son məqsədi prizmasında müqayisəli təhlili kifayət qədər aparılmamışdır. İnsanın iradə azadlığı məsələsinin fəlsəfi təhlili kifayət qədərdir. Həmin məsələnin dini təlimlər bağlılığında da araşdırılmasına rast gəlinir. İnsanın iradə azadlığı və məsuliyyətinin qarşılıqlı əlaqəsi müxtəlif dini təlimlərin müqayisəsi müstəvisində araşdırılmasına isə ehtiyac getdikcə daha çox duyulur. Məsələnin bu tərəfi müasir dünyada gedən sosial-mədəni, ekoloji, iqtisadi, siyasi, elmi, texnoloji və s. proseslərin təbiəti ilə əlaqəlidir.

---

*"Azərbaycan Universiteti"* nəşriyyatı, - 2000. - 316 s.; Caner Taslaman. İslam ve kadın / C. Taslaman, F. Taslaman, - İstanbul: İstanbul Yayınevi, - 2019. - 199 s.; Нурбахш, Дж. Психология суфизма/ Дж. Нурбахш. - Москва: Амрита - Русь, - 2004. -155 с.

Bu tədqiqat işində məhz həmin məqamlara ciddi diqqət yetirilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müxtəlif dini təlimlərdə və fəlsəfi sistemlərdə insanın mənəvi keyfiyyətləri və onların qiymətləndirilməsi ilə əlaqəli yer almış görüşlər və ideyalar, tədqiqatın predmetini isə insanın mənəvi-dini özünütəsdiqinin sosial-fəlsəfi tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyada müqayisəli təhlil və tutuşdurma kontekstində keçmiş və müasir dövrün görkəmli mütəfəkkirlərinin ideyaları təhlil olunur. Eyni zamanda, müxtəlif dini sistemlərin reallığın qlobal dərk edilməsinə, insan təbiətinə, ictimai münasibətlərə, din, fəlsəfə, elm arasındakı münasibətlərə aid konsepsiyaların təhlil edilməsi tədqiqatın başlıca məqsədini təşkil edir. Tədqiqatda qarşıya qoyulan bu məqsəd aşağıdakı vəzifələrin həllini zəruri etmişdir:

- şəxsiyyətin formalaşmasına təsir edən müxtəlif yanaşmaların öyrənilməsi və təhlili;
- müxtəlif dinlərdə əxlaq və etik prinsiplərə olan yanaşmaların oxşarlıq və fərqlərinin insanın mənəvi özünütəsdiqinin əsaslarının müəyyən edilməsi kontekstində aydınlaşdırılması;
- müxtəlif dini və fəlsəfi sistemlərdə xeyir, şər, mərhəmət və digər bu kimi məsələlərin öyrənilməsi, səbəblərinin müəyyənləşdirilməsi, müqayisəli təhlili və onların özünəməxsusluqlarının müəyyən edilməsi;
- mövzuya uyğun olaraq insanın azadlığı və məsuliyyəti məsələrinin təhlil edilməsi və bu prinsipin təsir mexanizminə nəzər salınması və s.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını dialektik idrak nəzəriyyəsi, sistem yanaşma, tarixilik, müqayisəli-komprativistik təhlil təşkil edir. Burada əsas metodoloji prinsiplər olaraq vahidlik prinsipi, bütün hadisələrin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı prinsipi, əksliklərin vəhdəti prinsipi, strukturluq prinsipi, təkamül prinsipi götürülmüşdür. Bir sıra terminlərin mənalarının açılaraq başa düşülən olması üçün bəzi hallarda semantik təhlil metodundan da istifadə olun muşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- dinin və fəlsəfəsinin təşəkkülü tarixində insan probleminə konseptual yanaşmanın nəzəri əsaslandırılması;
- tədiqiq edilən problemin inkişafının elmi-tarixi təhlili, insanın mənəvi-dini özünütəsdiqi, özünü kamilləşdirməsinin təşəkkülü və inkişaf tendensiyaları;
- müxtəlif dini təlimlər və fəlsəfi sistemlərdə xeyir və şər, mənəvi azadlıq və insanın öz davranışına görə məsuliyyət daşıması məsələnlərinin sərhədlərinin müəyyənləşməsi;
- müxtəlif dini və fəlsəfi sistemlərdə insanın həyatın mənasını dərk etməsinin etik meyarlarının və şəxsiyyətin mənəvi ideallarının müəyyənləşdirilməsi;
- iradə azadlığı, məsuliyyət və mənəvi ideal arasında bağlantıların olmasının müəyyənləşdirilməsi;
- elmi biliklərin inkişafı ilə insasının mənəvi-dini özünütəsdiqi məsələlərinin müqayisəli təhlili və s.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın əsas elmi yeniliyini insanın mənəvi özünütəsdiqinə dini təlimlərin və fəlsəfi sistemlərin müqayisəsi aspektindən nəzər salınması təşkil edir. Tədqiqat işindəki digər yeniliklərə aşağıdakıları da əlavə etmək olar:

- şəxsiyyət sosial-tarixi və mədəni faktor kimi fəlsəfi, kulturoloji və dini yanaşmaların qarşılıqlı əlaqəsi kontekstində tədqiq edilmişdir;
- şəxsiyyətin mənəvi ideallarının, etik prinsip və normalarının, xeyir-şər, azadlıq və məsuliyyətin insanın özünütəsdiqində və özünütəkmilləşdirməsində oynadıqları rol və tutduqları yerin müqayisəli təhlili verilmişdir;
- tarixin müxtəlif dövrlərində fərqli dini və fəlsəfi sistemlərdə şəxsiyyət probleminə olan baxışlar təhlil edilmış və onun sosial-mədəni mühitlə əlaqəsi müəyyən olunmuşdur;
- insan özünütəsdiqində dini və elmi təsəvvürlərin oynadıqları rolun qarşılıqlı müqayisəsi əsasında, şəxsiyyətin bütövləşmək imkanlarının fəlsəfi təhlili aparılmışdır;
- insanın özünütəsdiqində dini və elmi faktorların oynadıqları rolun daha səmərəli olması üçün onlar arasında yeni nisbətin formalaşdırılmasına yaranmış zərurət əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqatda əldə olunan nəticələr din və onun mənəvi-etik aspektləri haqqında nəzəri bilikləri genişləndirməyə imkan verir. Həmin nəticələr müasir cəmiyyətlərdə mənəvi-əxlaqi dəyərlərin yeri, rolu, təkamül tendensiyalarının müəyyənləşməsi istiqamətində aparıla biləcək fəlsəfi tədqiqatlarda istifadə oluna bilər.

Tədqiqatın nəticələri həmçinin dinşünaslıq, fəlsəfə, etika, mədəniyyətşünaslıq və başqa ictimai fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas müddəaları Bakı Slavyan Universitetində tələbələrə oxunan muhazirə kurslarında, universitetin "Azərbaycan tarixi və ictimai elmlər" kafedrasında, Respublika və beynəlxalq səviyyəli konfranslarda, seminarlarda, simpoziumlarda müzakirə olunmuş, tədqiqat mövzusu ilə bağlı müxtəlif elmi nəşrlərdə 25 məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Bakı Slavyan Universitetinin "Azərbaycan tarixi və ictimai elmlər" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 10 səhifə, birinci fəsili 68 səhifə, ikinci fəsili 60 səhifə, nəticə hissəsi 5 səhifə, istifadə edilmiş ədəbiyyat hissəsi 14 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 157 səhifə, 282983 işarədən (ədəbiyyat hissəsi istisna olunmaqla) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı, problemin işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılmış, aprobasiyası və tətbiqi qeyd edilmiş, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adi verilmişdir.

Dissertasiyanın "**Din və insanın mənəvi təkamülü problemi**" adlanan birinci fəslində dinin insanın mənəvi təkamülündə oynadığı rolun və tutduğu yerin fəlsəfi təhlili aparılır. Dünyəvi dinlərdə insan probleminə olan baxışların müqayisəli analizi verilir. Həmin problem əxlaqın ümumbəşəri və dini normalarının qarşılıqlı əlaqəsi kontekstində tədqiq olunur. Bu çərçivədə fəlsəfə tarixində əxlaqa olan fərqli yanaşmaların təhlili tədqiqata xüsusi məzmun verir. O cümlədən, xeyirxahlıq və rəhmlilik problemi və şərin fenomenologiyası kimi aktual fəlsəfi məsələlər ayrıca altfəsildə araşdırılır.

Bu fəslin birinci paraqrafı **"Fəlsəfə tarixində əxlaqa müxtəlif yanaşmalar"** adlanır. Tədqiqat işində əxlaq məsələsinə ayrıca yer ayrılması dissertasiyanın mövzusu kontekstində zəruri görünür. Çünki tarixin bütün dövrlərində əxlaq həm fərd, həm də toplum üçün oluqca əhəmiyyətli rol oynayır. Fəlsəfə tarixində əxlaqa müxtəlif yanaşmaların təhlili bu baxımdan həm də dini sistemlərdə əxlaq məsələsinin qoyuluşu və ona verilən məzmunun dərk edilməsi aspektində kifayət qədər aktuallıq kəsb edir. Bu paraqrafda əxlaqla bağlı irəli sürülən fikirlər də müqayisəli təhlil prizmasından araşdırılır.

Burada vurğulanır ki, qədim dövrlərdən əxlaq problemi filosofların və digər mütəfəkkirlərin maraq dairəsində olmuşdur. İnsanın fərd və kollektiv üzvü kimi keçirdiyi həyat tərzi həmişə aktuallıq kəsb etmişdir. Yunan filosofu Platonun əxlaqa aid fikirləri gətirilir. Platon yazır: *"Nə əsil-nəcabət, nə var-dövlət, ümumiyyətlə, dünyada heç bir şey bu məsələdə sevgini əvəz edə bilməz. Utanc gətirən şeylərdən uzaq durmaq və gözəl olana şərəflə canatmaq – bunlarsız nə ayrıca insan, nə də dövlət heç bir böyük işlərə qadir*

*deyil... Heç bir hərəkət öz-özlüyündə nə gözəl, nə də eybəcər deyil. Əgər o hərəkət gözəldirsə - xeyir, eybəcərdirsə - şərdir"*[5]. Sokrat isə insanda müdriklik, cəsurluq, xeyirxahlıq və ədalətliliyi yüksək qiyətləndirirdi. Ümumilikdə isə, *"Sokrat biliklə xeyirxaqlığı eyniləşdirirdi"*[6]. Elm tarixinə "etika" terminini daxil edən Aristotel isə yazırdı: *"...yaxsı, yaxud pis olmaq özümüzdən asılıdır"*[7]. Bunlarla yanaşa, paraqrafda digər qədim filosofların (Epikür, Zenon, Seneka və s.) əxlaqla bağlı fikirləri analiz edilir. Bundan sonra Orta Əsrlər, İntibah, Yeni Dövr, XIX və XX əsrlərdə mövcud olan etik-fəlsəfi sistemlərə yığcam nəzər salınır. Foma Akvinsikin etik baxışları Aristotelin etik-fəlsəfi prinsiplərinin xristian dininin tələblərinə uyğunlaşdırma cəhdi kimi təsvir edilir. İntibah dövrünün etikasının Orta Əsrlərin təsiri altında yaranmasına baxmayaraq, özünəməxsus fikirlər irəli sürdüyü əsaslandırılır.

İntibah dövrünün humanist-mütəfəkkirləri - Françeska Petrarka, Leonardo da Vinçi, Nikolay Kopernik, Mişel Monten, Frensis Bekon, Uilyam Şekspir, Martin Lyüter və başqalarının insanda təbii və ruhi başlanğıcların harmoniya təşkil etməsi ilə bağlı fikirləri analiz edilir.

Paraqrafda Yeni Dövr etik təlimlərinə ayrıca diqqət yetirilir. J.Kalvin, F.Laroşfuko, C.Lokk, B.Spinozanın etik görüşləri təhlil olunur. J. Kalvinin fikrincə, *"yuxarıdan veriləni dəyişməkdə gücsüz olan insan, yalnız həyatının necə formalaşması ilə bağlı mülahizələr yürüdə bilər. Yaşayışda uğur qazananlar Allahın "seçilmişləridir". O, inanc sahiblərini bu "dünya asketizminə" çağırırdı"*[8].

Yeni Dövr fransız filosofu F.Laroşfuko isə eqoizm, şöhrətpərəstlik, təmənna, paxıllıq insan davranışlarının əsas

---

[5] Платон. Диалоги: Феаг, Первый Алкивиад / - Москва: Академический проект, - 2011. - s. 94.

[6] Şükürov, A. Fəlsəfə. Ali məktəblər üçün dərslik Yenidən işlənmiş 2-ci nəşir.- Bakı: Milli Virtual Kitabxananın e-nəşri N 69 - 2011. - s. 141.

[7] Aristotel, Siyasət. Böyük etika / Aristotel. Tərcüməçi: Fikrət Xəlilov (Təbibi). – Bakı: "XXI əsr -Yeni Nəşrlər Evi", - 2006. - s. 328.

[8] Кальвин, Ж. Наставление в христианской вере [В 3 – х томах] / Ж. Кальвин. - Москва: Изд-во РГГУ, Т. I, -1997. - s. 71.

hərəkətverici qüvvələri olduğunu iddia edir və *"insan cəmiyyətdə həmişə eqoistik məqsədlər güdür, bizə xoşbəxtlik əvəzi yox, xoşbəxt görünmə arzusu daha çox əzab verir, bizi incidir"*[9]- deyə qeyd edirdi. Con Lokk irsi əxlaqi anlayışlar və prinsiplərin mövcudluğunu inkar edirək, eyni zamanda, hesab edirdi ki, dinsiz əxlaq yoxdur və İncili "əla əxlaq traktatı" kimi qəbul edirdi. Benedikt Spinoza Bibliya kanonlarının tənqidçisi kimi fəlsəfəsinin əsas vəzifəsini əbədi və sonsuz təbiət haqqında etik təlimin hazırlanmasında görürdü. Onun fəlsəfi təliminə görə, *"Allaha məhəbbət ən yüksək xoşbəxtlik olduğundan, insanın bütün məqsəd və fəaliyyətinin sonu olmalıdır"*[10].

Paraqrafda vurğulanır ki, Qərbdə XIX əsrin ikinci yarısında liberal xristianlıq geniş yayılmağa başladı. Onun ABŞ-da nümayəndələri U.Rauşenbuş, Ş. Matyus, F.Pibodi, Avropada A.Riç, E.Trelç, A.Harnak və başqalarıdır. Onlar xristian dini təliminin konkret sosial və əxlaqi proqrama çevrilməsi ideyası ilə çıxış edirdilər.

I fəslin ikinci paraqrafı **"Əxlaqın ümumbəşəri və dini normaları"** adlanır. Bu paraqrafda əxlaqın ümumbəşəri və dini normalarının qarşılıqlı əlaqədə fəlsəfi analizi aparılır. Dini əxlaq, dini dünyagörüşün birbaşa təsiri altında formalaşan mənəvi anlayışlar, prinsiplər, etik normalar sistemi kimi dərk edilir. Dini əxlaq normalarında əbədilik və dəyişməzlik məqamı başlıca məqam təşkil edir. Eyni zamanda vurğulanır ki, fərqli dini sistemlərdə əxlaq normaları arasında fərqlər mövcuddur. Yəni dini-mənəvi dəyərlər mahiyyətcə tarixidir və konkret sosial-mədəni mühitlə sıx bağlıdır.

Bu bağlılıqda paraqrafda bəşər tarixində ilkin dövrlərdən başlayaraq davranış "normaları" haqqında təsəvvürlərə nəzər salınır, mifologiyanın özəllikləri vurğulanır. Ayrıca, İslamın din kimi mənəvi-əxlaqi aspektdə müsbət cəhətləri və məzmunu üzərində

---

[9] Де Ларошфуко, Франсуа. Максимы. Мемуары / Франсуа Де Ларошфуко. Перевод Э. Линецкая. - Москва: Издательство АСТ, - 2011. - s. 45.
[10] Спиноза, Б. Богословско-политический трактат / Б. Спиноза. Пер. с лат. М. М. Лопаткина, С. М. Роговина, Б. В. Чредина. - Москва: Академический проект, - 2015. - s. 54.

geniş dayanılır. Məlumdur ki, İslam tarixdə böyük əks-səda doğurmuş və güclü təsirə malik orijinal dindir. *«Dini şəbəkə kimi İslam özünün açıqlığı, rahat şəkildə qenişlənmək imkanı, dəyişən şəraitə tez uyğunlaşması, həmçinin sərt mərkəzləşmənin, iyerarxiyanın və qərar qəbulunda mürəkkəb mexanizmlərin olmaması ilə xarakterizə olunur və qloballaşma dövründə çox gözəl inkişaf perspektivlərinə malikdir”*[11].

Paraqrafda İslamla yanaşı, xristianlıqda və buddizmdə mənəvi-əxlaqi normaların izahı verilir və onlar müqayisəli şəkildə təhlil edilirlər. Bu təhlilin fonunda qədim çin, hind və yunan fəlsəfi-etik təlimlərində əxlaqa baxış, mənəvi dəyərlərin dərki, əxlaq normalarının müəyyənləşdirilməsi kimi aktual məsələlərə nəzər salınır. Bu cür yanaşma çərçivəsində ümumbəşəri mənəvi-əxlaqi dəyər normaları ilə dini normaların qarşılıqlı əlaqə və təsirlərdə təhlili verilir. Konfutsi, Lao Szı, Sokrat, Hesoid, Antisfen, Aristotel və digər filosofların fikirlərinə istinad edilir.

Paraqrafda XX əsrdə və XXI əsrin başlanğıcında etik təlimlərin əxlaq normaları aspektində yığcam analizi də verilir. Burada Şərq və Qərb məktəblərində mövcud olan yanaşmlara nəzər salınır. Həmin prizmada Şərqdə olan etik-fəlsəfi təlimlərin sintezi kontekstində Oşo, Şri Aurobindo, Mahatma Qandinin baxışları üzərində dayanılır, XX əsrin əvvəllərində Amerikada meydana gəlmiş “humanist etika” təliminin, Avropada ekzistensializm məktəbinin baxışlarının xarakteristikası verilir. Şri Aurobindonun “İnteqral yoqa” anlayışına fərqli etik təlimlərin sintezi imkanları (məsələn, yoqa ilə sufilik arasındakı müəyyən oxşarlıq və s.) məsələsi kontekstində nəzər salınır. Ayrıca, U. Faut, İ. Bebit, K. Harnet, İ. Levin, S. Kyerkeqor, P. Lafarq, A. Şveyser, K.Yaspers, M. Haydegger, Q. Marsel, J. P. Sartr, A. Kamyünün fikirləri vurğulanır.

Bu fəslin üncü paraqrafı **“Müxtəlif dinlərdə insan probleminə baxiş”** adlanır. Bu paraqrafda əvvəlcə, dinin fəlsəfəsinin ümumi ideya və prinsipləri təhlil edilir. Göstərilir ki,

---

[11] Кулиев, Э. Р. Коран и глобализация: в поисках гуманистических идеалов / Э. Р. Кулиев. – Баку: «Абилов, Зейналов и сыновья», - 2005. - s. 10.

dinin fəlsəfəsi dinlə bağlı ümumi ideya və prinsipləri əhatə edir və dinlərin irəli sürdüyü həqiqətə çatmaq iddialarını öyrənir. Onların mənasını fəlsəfi izah edir. Bütövlkdə, dinin fəlsəfəsi dini inancları araşdırır. Paraqrafda həm dinin məzmunu, həm də ona olan fəsəfi baxışların başlıca cəhətləri ardıcıl olaraq izah edilir. Dinlərin çoxlu sayda tipologiyasının təhlilindən alınan nəticələr analiz edilir.

Bütövlükdə, paraqrafda dinin çoxlu sayda tipləri (teizm, deizm, dualizm, panteizm, monoteizm və s.) əhatəli şəkildə fəlsəfi mövqedən təhlil edilir. Fəlsəfə tarixində məsələ ilə bağlı filosofların (məsələn, Pifaqor, Platon, Aristotel, M.Avreliy və s.) fikriləri analiz edilir. M. Avrelinin insanla bağlı bir fikri verilir: *“insan üçlüdür: onun cismi var – cism mənasızdır, onun ruhu var, ruh – “həyat gücünün ifadəsidir”, onun idarəedici başlanğıcı var, bu – zəkadır. İnsanın zəkası onun dahiliyidir, onun tanrısıdır.İnsan zəkanı özündə şərəfləndirməlidir –sinəndə yaşayan dahini korlama”*[12].

Bu paraqrafda Yeni Dövr Avropa fəlsəfəsində, klassik alman fəlsəfəsində problemlə əlaqəli irəli sürülən fikirlər analiz olunur və qeyri-klassik fəlsəfənin məsələyə yanaşaması təhlil edilir. Onların prizmasında yekun olaraq insanın özünütəsdiqinin tarixi təkamülü kontekstində fərdi ilə ümumbəşərinin qarşılıqlı əlaqəsinin fəlsəfi dərkinin vacibliyi vurğulanır.

I fəslin dördüncü paraqrafı **“Xeyirxahlıq və rəhmlilik problemi, şərin fenomenologiyası”** adlanır. Burada öncəki paraqraflarda mənəvi-əxlaqi dəyərlərlə bağlı ifadə edilən fikirlərin fonunda konkret olaraq xeyirxahlıq və rəhmlilik probleminə nəzər salınır. Ümumi halda şərin fenomenologiyasının fəlsəfi anlamı üzərində dayanılır. Foma Akvinskinin kainatdakı nizamsızlığı onun ilkin günahı hesab etməsi ilə bağlı ifadə etdiyi fikrin fonunda Leybnitsin “Allah mümkün dünyalardan ən yaxşısını yaradıb” tezisinin analizi aparılır. Bir məqam üzərində dayanılır ki, əgər bizim xeyirxahlıq hissimiz həssas deyilsə, şərin nə olduğunu bilmərik. Bu fikirlər əsasında belə qənaətə gəlinir ki, şər yoxluqdur, heçlikdir, deməli, Allahın atributlarından ola bilməz. Həmin

---

[12] Аврелий, М. Наедине с собой. Размышления / М. Аврелий. Перевод А. К. Гаврилова. – Санкт – Петербург: «Азбука», - 2014. s. 74

bağlılıqda Qurani-Kərimdən surələrə müraciət edilir. Ayrıca, “şər” və “əziyyət” anlayışlarının fəlsəfi anlamına diqqət yetirilir.

Burada vurğulanır ki, humanist etikanın nöqteyi-nəzərincə, şər həyata qarşı yönələn hər bir şeydir, xeyir isə həyatla eyniləşdirilir. Deməli, həyatla ölüm arasında seçim etmək fundamental etik alternativlikdir. Z.Freyd bunu, məhsuldarlıqla destruktivlik, qabiliyyətlə qabiliyyətsizlik, ləyaqətlə qüsur arasındakı alternativlik kimi xarakterizə edir. Paraqrafda vurğulanır ki, ümumilikdə, Qərbdə şər probleminə əsasən, iki yanaşma ənənəsi mövcuddur – Avqustin və İreney yanaşmaları. Avqustinə görə, şər xeyirə qarşı duran müstəqil qüvvə deyil, yalnız xeyirin çatışmamasıdır. O, “Ruhun ölməzliyi” əsərində yazır: *“Allahdan qeyrisi tərəfindən verilmiş həyat yoxdur, çünki Allah yüksək həyat mənbəyidir və şərlə (zülmlə) dolu olan bir həyat da yoxdur. Şər insan ölmə meylli olduqda yaranır”*[13]. Sonradan Avqustinin mövqeyi katolisizmin şərlə bağlı əsas mövqeyinə çevrildi.

Şər probleminə Qərbdə olan ikinci ənənəvi yanaşma İreneyin adı ilə əlaqəlidir. Bu nəzəriyyə görə, Allah xeyir və şərin mövcud olmasını, onların köməyi ilə daha artıq xeyir olan – insan azadlığını və insanların İlahi ilə əlaqə qurmaq qabiliyyətini həyata keçirmək üçün lazım bilib. Sərbəst seçim etmək üçün Allah insana iradə azadlığı verib.

Bu paraqrafda xüsusi olaraq İslamda xeyir və şər məsələsinin mükəmməl şəkildə həll edildiyi xüsusi vurğulanır. Allah rəhmdil və mərhəmətlidir, eyni zamanda *«yaxşılıqla pislik eyni ola bilməz»*[14]. İslam (Qurani Kərim) Allahı sevənlərin hamısını şəri sevməməyə çağırır. İslamla yanaşı xristianlığın da əxlaq kodeksinə burada təhlili yanaşılır. Məsələn, şərlə bağlı belə bir ehkam gətirilir: *“Şərə nifrət edin, xeyri sevin, ədaləti bərpa edin”*[15].

---

[13] Августин, Б. О бессмертии души /Б. Августин. - Москва: ООО. Издательство «АСТ», - 2004. - s.441.

[14] Qurani-Kərim / ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev. – Bakı: “Çıraq”, - 2005. - s. 494.

[15] Библия. Современный перевод Библейских Текстов / - Москва: World Bible Translation Center, - 2002. Əhti ətiq, Amos kitabı AM 5:15, -c. 849.

Xeyir və şər məsələsi Daosizmdə Dao ilə harmoniyada yaşamaq zərurəti formasında qoyulur. Orada hər şeyə xeyirxah münasibət göstərmək, rəhmdil olmaq, ehtiyacı olanlara yardım etmək, başqalarının sevincini və kədərini özünükü kimi qəbul etmək və s. ümumbəşəri xeyirli davranışlar təbliğ olunur. Paraqrafda *"Dao – bütün mövcudatın həyat mənbəyidir"*[16] kimi fikirlər də vurğulanır.

Bütün bunlardan nəticə kimi çıxarılır ki, şər və əziyyətə dinin necə reaksiya verməsindən asılı olmayaraq tamamilə məntiqə əsaslanan yanaşma məhduddur. Bütün dinlərdə inam gətirənlər üçün Allah ən yüksək mənəvi inkişaf mənbələrini açır. Bu aspektdə iudaizmdə, xristianlıqda və islamda olan əsas ehkamlar arasında oxşarlığın olması gözlənilləndir. Fəlsəfi baxımdan çıxış yolu azad insan obrazındadır. Azad insan mənəvi təkmilləşmə ilə şərə qalib gələ bilər.

İkinci fəsil **"İnsanın özünütəsdiqində elm və dinin rolu"** adlanır. Bu fəsildə insan mənəvi-dini özünütəsdiqinin fəlsəfi analizi verilir və nəticələr çıxarılır. Problem elmin inkişaf dinamikası fonunda araşdırılır və uyğun müqayisələr aparılır. İnsanın özünütəsdiqi şəxsiyyətin mənəvi azadlığı, məsuliyyəti və idealları ilə sıx bağlılıqda analiz edilir. Bu fəsil də dörd paraqrafdan ibarətdir.

Birinci paraqraf **"Elmi biliklərin inkişafı və insanın dini-mənəvi təkamülünün müqayisəli təhlili"** adlanır. Elmi biliklərlə dini-mənəvi dəyərlər arasında əlaqələr XXI əsrdə daha da aktuallaşıb və yeni məzmun çalarları kəsb edir. Bir sıra alimlər hətta elmlə dinin sintezi zərurətindən bəhs edirlər. Bu paraqrafda isə problem daha məhdud aspektdə - insanın özünütəsdiqi prosesində elmi və dini təsəvvürlərin qarşılıqlı əlaqəsi çərçivəsində araşdırılır. Göstərilir ki, qədim dövrlərdən elmi biliklərlə mifoloji və dini biliklər arasında qarşılıqlı əlaqə mövcud olub. Elmi biliklərin tədricən təbiəti dərk etmənin müstəqil formasına çevrilməsi ilə bu münasibətlərdə məzmun dəyişikliyi də baş verib. Bu baxımdan Foma Akvinsikinin təbii teologiya konsepsiyası elmi

---

[16] Вонг, Е. Даосизм / Е. Вонг. Пер. с анг. Ю. Бушуевой. - Москва: ФАИР-ПРЕСС, - 2001. - s. 34.

həqiqətlərdən fəlsəfi və dini həqiqətlərə ardıcıl olaraq keçmək imkanlarını əsaslandırmaq kontekstində maraq doğurur. Lakin elmi və dini təsəvvürlər arasında ziddiyyət aydın formada dünyanın mexaniki mənzərəsi haqqında təlim yarananda özünü daha qabarıq göstərməyə başladı. Məhz bu məqamı nəzərdə tutaraq katolik teoloq J.Mariten təsdiq edirdi ki, elm və teologiya "yolayırıcına gəlib çıxıblar". J.Mariten elmə "inteqral humanizm" ifadəsini daxil edib. O hesab edirdi ki, "xristianlığa qarşı bədxah fikirlər" vardır.

Paraqrafda nisbilik nəzəriyyəsinin meydana gəlməsi ilə dünyanın elmi mənzərəsində də dəyişikliyin yaranması işığında elm-din münasibətlərinə ayrıca yer verilir. Bu baxımdan dini və elmi dünyagörüşlərinin dissertasiyanın mövzusu kontekstində müqayisəli təhlili aparılır. Dini dünyagörüşünün iki dünyagörüşü səviyyəsinin – adi və nəzəri səviyyənin qarşılıqlı təsirini nümayiş etdirməsi prizmasında "inam" anlayışı təhlil edilir. Burada başlıca məqamlardan biri kimi inamın öncəki nəsillərdən tarixi olaraq, mədəniyyət kontekstində və insanın şəxsi təcrübəsinə dayanaraq qəbul edildiyi ayrıca vurğulanır.

Burada diqqət ona yönəldilir ki, müxtəlif dini dünyagörüşünün məzmununda bir sıra təkrarolunan fundamental ideyalar vardır. Məsələn, dünyanın Allah tərəfindən yaradılması (kreasionizm), dünyada baş verən hadisələrin Allah tərəfindən müəyyən edilməsi (öncədəngörmə), dünya quruluşunun məqsədyönlülüyü (teleologiya), insanla Allahın əlaqələri və s. Bununla müqayisədə belə bir məqama da diqqət çəkilir ki, fəlsəfi dünyagörüşü nəzəri bilik səviyyəsində inkişaf edir. Fəlsəfi və dini dünyagörüşünün müqayisəsi aspektində yarımfəsildə N. Berdyayev və Q. Marselin fikirlərinin analizi maraqlı məqamları aydınlaşdırır. Həmin bağlılıqda Q.Marselin bir fikrinə müraciət edilir: *"Əzab-əziyyət qabiliyyəti insanın mənəvi azadlığına təzahür formasıdır. Ən fədakar ruh, faktiki olaraq ən azad olan ruhdur"*[17].

Bu paraqrafda tanatologiya və esxatologiya dini dünyagörüşünün mühüm aspektləri kimi izah olunur. Bu təlimlərin

---

[17] Марсель, Г. Быть и иметь / Г. Марсель. - Новочеркасск: Сагуна, - 1994. - с. 108.

əsas məsələsi ölüm və ölümün sərhədlərindən o tərəfdə baş verənlər haqqında fikirlərdir. Hazırkı tarixi mərhələdə tanatologiya və esxatalogiyanın dini dünyagörüşündə əhəmiyyətinin daha da artdığı tezisi irəli sürülür. Həmin kontekstdə E.Kübler-Ross, S. Qroff, R.Moudinin və başqalarının fikirlərinə müraciət edilir. S.Qrof qeyd edir ki, *"ölüm – gec və tez bütün yaşayanların keçəcəyi çox az hiss və həyəcanlardan biridir"*[18].

Nəhayət, bu paraqrafda elmin inkişafı dinamikası fonunda dini dünyagörüşü ilə əlaqələrə nəzər salınır. İ. Nyuton, N. Kopernik, C. Bruno, P. S. Laplas, B. Spinoza, Ç. Darvin, A .A. Fridman, İ .Priqojin, H .Haken, N. Viner, E. Maturana və başqa alimlərin fikirlərinin analizi əsasında konkret nəticələr çıxarılır. O cümlədən, elmi biliklərin inkişafı ilə dini-mənəvi dəyərlərin təkamülü arasında bağlılığın təhlil edilməsinin aktuallığı göstərilir. Yəni burada həm uyğunlaşma, həm bir-birini stimullaşdırma, həm də rəqabətin mövcud olduğu dərk edilməlidir.

Bu fəslin ikinci paraqrafı olan **"Elmi və dini dünyagörüşləri: qarşılıqlı təsirlərin ziddiyyətləri və dialektikası"ında** öncəki paraqrafda aparılan analiz daha da dərinləşir və əhatə dairəsi geniş götürülür. Dünyagörüşü paraqrafda insanın bütövlükdə dünyaya, özünün ondakı yerinə, öz fəaliyyətinin mənasını və bəşəriyyətin taleyini anlamağa və qiymətləndirməyə olan ümumiləşmiş baxışlar sistemi, elmi, fəlsəfi, siyasi, hüquqi, mənəvi, estetik, dini inamların və ideallların toplusu kimi tərif edilir. Fəlsəfə tarixində kosmosentrizm , teosentrizm, antroposentrizm, eqosentrizm, ekssentrizm kimi növlərinin olduğu vurğulanır. Müxtəlif fəlsəfi sistemlərdə dünyagörüşü məsələləri fərqli həll edilir. Mifoloji, fəlsəfi və dini dünyagörüşünün nəzəri müqayisələri aparılır və uyğun nəticələr çıxarılır. Mifoloji və dini dünyagörüşləri arasında müəyyən oxşar xüsusiyyətlərin mövcudluğu üzərində dayanılaraq, dini dünyagörüşü insan dünyasının fövqəltəbii varlıqlarla əlaqə vasitəsi ilə izahı kimi xarakterizə edilir. Mifologiya ilə dinin fərqi

[18] Гроф, С. Человек перед лицом смерти / С. Гроф. Пер. с анг. А. И. Неклесса. - Москва: Издательство Трансперсонального института, - 1996. - с. 14.

qismində isə mifologiyanın sadəcə öz dünya mənzərəsini təqdim etməsi, dinin isə ona inanmaq göstərişini verdiyi vurğulanır.

Elmi kontekstdə isə dünyagörüşünün kökü həmişə elmi səviyyənin dərinliyinə və inama gedib çıxır. Müasir mərhələdə elmlə dinin əsas mübahisəsinin eksperimental tədqiqatın sərhədlərindən kənarda, dünyanın başlanğıcı və yaranması problemi ilə bağlı olması ayrıca vurğulanır. Lakin hansı kosmoqoniyanın üstün gələcəyinin din üçün qətiyyən əhəmiyyəti yoxdur. Məsələnin maraqlı aspektini yuxarıda vurğulananlarla yanaşı, müasir fiziklərin fikirləri də təşkil edir. Bu bağlılıqda R. Payerlsin, H. Şeplinin və başqalarının irəli sürdüyü fikirlər maraq doğurur. Burada A. Eddiqtonun "dərk olunmamış dünyanı" dini yolla, mistik təcrübə vasitəsilə dərk etməyin mümkünlüyü ilə bağlı ifadə etdiyi tezis cəlbedici görünür. Paraqrafda bu kimi nümunələr əsasında belə nəticə çıxarılır ki, dinlə elmi dünyagörüşünün münasibətləri tarixən dəyişir və hətta bəzən ən böyük alimlər belə dinə rəğbət bəsləyir.

Yuxarıdakı vurğulanan kontekstdə aktual olan məqamlardan biri də tarixən dinlə elm arasındakı münaqişələrin izahı ilə bağlıdır. Bu problemlə bağlı alman katolik ilahiyyatçıları E. Fer və O. Şpilbek, avstraliya protestant ilahiyyatçı N. Yanqın izahı burada qeyd edilir. Onların mövqeyinə görə, *"dinlə elm arasındakı münaqişənin səbəbləri hər iki tərəfin öz tədqiqat sərhədlərini aşması və kompetent olmadıqları sahələrdə fikir bildirməsi ilə bağlıdır"*[19]. Konkret olaraq, ilahiyyatçılar alimlərdən tələb edirdilər ki, onların aldıqları nəticələr dünya haqqındakı dini təsəvvürlərlə uyğunlaşdırılsın. Alimlər isə öz növbəsində israr edirdilər ki, onların aldıqları nəticələr Allahın mövcudluğu haqqındakı təsəvvürlərin yanlış olduğunu təsdiqləyir. Amerikan alimi H. Rolstona görə *"elm bilik axtarır, din isə müdriklik, onlar bir-birini istisna etmirlər, bəzi məqamlarda üst-üstə düşürlər"*[20].

İlahiyyatçılar sırasında P. Qreqoriusun fikrinə görə, *"dinlə*

---

[19] Основы религиоведения. Учебное пособие. / Ю. Ф. Борунков, И. Н. Яблоков, М. П. Новиков, и др. Учебное издание под ред. И. Н. Яблокова. - Москва: Высшая школа, - 1994. - с. 312.
[20] Rolston, H. Science and Religion / H. Rolston. - N. Y.: - 1987. - p. 29.

*elmin hər ikisi insanın reallığa münasibətini təmsil edirlər, koqnitiv və praktiki məzmuna malikdirlər və eyni zamanda, insanın özünə və onun dünyaya münasibətinə təsir edirlər"*[21].

Paraqrafda fəlsəfə və İlahiyyət tarixində mövcud olan çoxlu sayda digər fikirlərin müqayisəli təhlili aparılır, müasir elmi istiqamətlərdə ifadə edilən fikirlər şərh olunur (sinergetika, avtopyezis və s.) və onlar əsasında bir sıra qənaətlər əldə edilir. O cümlədən, elmi dünyagörüşünün getdikcə daha geniş və dərin məsələlərdə dini dünyagörüşü ilə qarşılıqlı əlaqədə olması zərurətinin yetişdiyi vurğulanır. Buna baxmayaraq, elm və dinin metod və məzmun baxımından fərqli səviyyələr olduğundan hansı konkret məqamlarda sintezin mümkün ola biləcəyi hələ məlum deyildir. Həmin mənada bu məsələnin özünün fəlsəfi təhlilinin aktuallığı vurğulanır.

II fəslin üçüncü paraqrafı **"Dini təlimlərdə şəxsiyyətin mənəvi azadlığı və məsuliyyəti məsələsi"** adlanır. Şəxsiyyətin mənəvi azadlığı və məsuliyyəti məsələsi fəlsəfə tarixində həmişə aktual mövzulardan olub. Dini təlimlərdə bu məsələ həm fəlsəfi-nəzəri, həm də konkret sosial-mədəni kontekstdə vacib hesab edilib. Bu paraqrafda müxtəlif dini təlimlərdə şəxsiyyətin mənəvi azadlığı və məsuliyyəti məsələsi fəlsəfi aspektdə təhlil edilir. Müasir dövrdə isə dini çərçivədə mövcudolmanın ali mənasına inamın, şəxsiyyətin azadlıq və mənəvi müstəqilliyi ilə necə sintez edilə bilməsinin müəyyənləşməsinə canatma özünü göstərir. Bu məsələnin həlli yalnız fəlsəfi yanaşma çərçivəsində mümkündür. Konkret ifadə etsək, bu paraqrafda qoyulan problemin fəlsəfi analizi elmi idrak üçün böyük aktuallıq kəsb edir.

Bir sıra müasir filosoflar şəxsiyyətin azadlığı məsələsinə B. Spinoza və V.Hegelin təsiri altında yanaşırlar. Bu zaman qeyri-azadlıqla azadlığın dialektikasının fəlsəfi dərki aktuallıq kəsb edir. Eyni zamanda, azadlığın dərk edilməsi problemi müasir dünyanın özəllikləri, insanın mənəvi axtarışlarının kəskinləşməsi prizmasında əlavə aktuallıq kəsb etməkdədir. Filosofların fikrinə görə,

---

[21] Gregorius, P. M. Cosmic Man. The Divine Presence / P. M. Gregorius. - N.Y.: - 1988. - p. 307.

ümumiyyətlə, dini azadlıq ideyasının dərk edilməsində əsas məsələ kimi ontoloji və aksioloji aspektləri qəbul etmək gərəkdir. Bu cür yanaşma, öz növbəsində idrak, etika, esxatologiya problemlərinin problemin dərkində əhəmiyyətini anlamağa istiqamət verir.

Problemin diqqət çəkən başqa bir yönü ondan ibarətdir ki, azadlığın dərk edilməsinin ontoloji aspektinin mahiyyəti vəhyin özündə açılmır. Burada daha çox düşünən şəxsin qavrayış və daxili yaşantıları önə çıxır. Həm də azadlığın ontoloji tərifi istənilən dini fəlsəfə üçün əhəmiyyətli olan şər və onun səbəbləri problemindən qaynaqlanır. Bu fikirlərin işığında İslam və xristian dini ənənlərində azadlıq məsələsinin qoyuluşu təhlil edilir. Vurğulanır ki, həmin məsələ İslam ənənəsində daha geniş və dərin qoyulmuşdur. O cümlədən, "səbr" anlayışının İlahi məntiqlə bağlılığı üzərində dayanılır. Xristianlıqda isə azadlıq ideyadan çox zəruri tezis kimi çıxış edir. Eyni zamanda, xristianlıqda azadlığın ikinci vacib aspekti aksioloji məqamla bağlıdır.

Bu paraqrafda mənəvi azadlığın üç növü – formal, real və ideal azadlıqlar vurğulanır və dini aspektdə onların dərki üzərində dayanılır. Müxtəlif dini təlimlərdə (İslam, iudaizm, xristianlıq) məsələnin həmin aspekti analiz edilir, insan üzərinə qoyulan məsuliyyət dərəcəsi arasındakı fərqlər təhlil olunur. Həmin kontekstdə paraqrafda F. Nitşenin azadlıq probleminə münasibəti üzərində dayanılır. F. Nitsşe hesab edirdi ki, ənənəvi əxlaq kənardan insana qadağa və qaydaların bütöv sistemini yazmaqla yalnız qeyri-azadlığın prezumpsiyasına əsaslana bilərdi.

Bütün bunların fonunda paraqrafda İslamda həmin problemə olan münasibət üzərində daha geniş dayanılır. Göstərilir ki, İslam daha əsaslı şəkildə "azadlıq", "ruh", "qədər", "qismət", "səbr" və digər anlayışları izah edir. Qurani-Kərimdə yer almış "heç bir ruh başqasının yükünü daşıya bilməz" ideyasının fəlsəfi izahı verilir. Həmin terminlərin "ədalət" anlayışı ilə sıx bağlılığının İslam təlimində yer aldığı vurğulanır.

Bunlardan başqa, paraqrafda sufilərin və tanınmış müsəlman alimlərinin problemlə bağlı fikirləri də analiz edilir.

**"Din və şəxsiyyətin mənəvi idealları"** adlanan dördüncü

paraqrafda şəxsiyyətin özünütəsdiqində mənəvi ideal etalonunu məsələsinin fəlsəfi analizi yer alıb. Məlumdur ki, hər bir din özünün kamillik idealını irəli sürür. Onları birləşdirən məqam Allaha inamdır. Bu səbəbdən də mənəvi ideal problemi bəndə-Allah münasibətlərinin məzmunu ilə sıx bağlıdır.

Bu məsələdə İslam fərqli mövqedədir. Tədqiqatçılar qeyd edirlər ki, *"...İslam dini yeni bir təfəkkür və həyat tərzi gətirdi və burada iki istiqamətdə inkişaf edən, lakin eyni nəticəyə aparan proseslər başlandı: bir tərəfdən, əvvəldən var olan biliklərin, düşüncənin yeni istiqamətə yönəldilməsi, uyğunlaşdırılması, digər tərəfdən, sırf İslamın öz spesifik ideyalarının get-gedə çiçəklənməsi"*[22]. Bunun konkret ifadəsi İslamın bir din hadisəsi olaraq prinsipial dini ehkamları özünəməxsus qiymətləndirməsində tapdı. O cümlədən, müsəlman üçün Allah hər şeyə qadir Yaradandır. Allah heç şeyə oxşar deyil. "İxlas" surəsində deyilir: *"O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir!; O, nə doğmuş, nə də doğulmuşdur!; Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"*[23]

İslamda duanın ayrıca yeri vardır. Dua Allaha aparan yollardan biri kimi qəbul edilir. Eyni amanda, dua digər baza elementlərdən ayrı baxıla bilməz. Dua həm də "vahid mövcudat" axtarışlarında açardır. Təbii ki. dua əsl müsəlman olmaq istəyənlərə şəxsi və ictimai həyatında yardımçı olur.

Paraqrafda İslamda digər ehkamların izahı haqqında təhlili araşdırılma aparılıb. Məsələn, "küfr", "özündənrazılıq", "yekəxanalıq" kimi terminlərin dərki verilib. Erix Fromun yekəxanalığa aid fikirləri ilə əsrlər öncə İslamda yer almış ehkamın oxşarlığı qeyd olunub. Bunlarla bərabər paraqrafda buddizm, xristianlıq, induizm və iudaizmdə mənəvi ideal məsələsinin dərk edilməsinə fəlsəfi yanaşma geniş yer tutur. Bu dinlərdə şəxsiyyətin mənəvi idealları bir qədər fərqli izah edilir. Onların kontekstində

---

[22] Bünyadzadə, K. Y. Islam fəlsəfəsi: tarix və müasirlik / K. Y. Bünyadzadə. – Bakı: Çaşıoğlu, - 2010, - s. 23.

[23] Qurani-Kərim / ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev. – Bakı: "Çıraq", - 2005. Əl-ixlas surəsi, 112:1-4, - s. 630.

induizm və buddizmdə karma anlayışının fərqli məzmunu vurğulanır. Məsələn, induizmdən fərqli olaraq Buddizmdə kasta ideyası yoxdur. Burada insanların imkanlarının eyni olması baxımından bərabər olmaları ideyası vardır. Ancaq induizmdə olduğu kimi buddizmdə də karmadan danışılır. Burada karma fərqli ideyaya malikdir. Bu, tale və ya qədər ideyası deyil. Karmanın qismət kimi başa düşülməsi klassik induizmdə olmamışdır, lakin müasir induizmdə ona rast gəlmək olur. Tədqiqatçılar daha çox bunu İslamın təsiri kimi qiymətləndirirlər. Klassik induizmdə karma ideyası borc ideyasına yaxındır. Bunlardan başqa, buddizmə görə, hər bir kəs fərdidir, hətta budda olandan sonra da o, fərdiliyini saxlayır. Deməli, buddizm qəbul edir ki, hər şey Mütləqdə eyni və ya bir deyil. Bu fikirlərin fonunda buddizmlə daosizm arasındakı oxşar və fərqli cəhətlərə nəzər salınır.

Paraqrafda filosofların bu problemlə bağlı ifadə etdikləri fikirlərə də yer verilir. Spinozanın rasional dinin əsasını qoyduğu qəbul edilir. Spinozaya görə, daha rasional olmaq Allaha daha yaxın olmaq deməkdir. Bütövlükdə, Qərb fəlsəfəsində monoteizm, politeizm və ya ateizm inancları geniş yayılıb. Qərb dini fəlsəfəsinin böyük hissəsi Allahın varlığını sübut etmək axtarışlarına yönəlib.

Paraqrafda aparılan müqayisələr müxtəlif dini təlimlərdə insanın özünütəsdiqi və mənəvi idealı barədə fəsləfi nəticələr çıxarmağa əsas verir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatda aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər ümumiləşdirilir. Burada qeyd edilir ki, bəşər tarixində elmlə dinin münasibətləri yalnız qarşıdurmalarla xarakterizə olunmamış, onlar bir-biri ilə daha dərin, mürəkkəb qarşılıqlı münasibətlərdə olmuş, bəzi hallarda isə barışdırıcı məqamlar özünü göstərmişdir. Gəlinən qənaətlərdən biri də budur ki, bu iki mənəvi fəaliyyət sahəsi insanın mənəvi təkamülünü stimullaşdırmışdır. Müəyyən dərəcədə demək olar ki, mənəvi-əxlaqi dəyərlər iki dünyagörüşün "kəsişmə sahəsidir". İşdə müqaisəli təhlil nəticəsində bir sıra maraqlı məqamlar da diqqətçəkici görünür. Məsələn karma , ahimsa, səbr, azadliq və

başqa dəyərlərin müxtəlif dini sistemlərdə fərqli məzmun və məna kəsb etməsi bu qəbildəndir. Bu kimi və digər müqayisəli təhlillər dinlər və mədəniyyətlərarası dioloqun zəruriliyini bir daha təsdiqləyir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı tezis və məqalələr nəşr olunmuşdur:**

1. N.Tusi insan əxlaqının mahiyyəti haqqında // - Bakı: İpək yolu jurnalı, - 2000. №2, - s. 32-33.
2. Fridrix Nitsşe fəlsəfəsində Zərdüştilik və yunan mifologiyası // - Bakı: Sosial Bilgilər jurnali, - 2001. №2, - s.75-82.
3. Həyat fəlsəfəsində insan probleminə dair bəzi mülahizələr // - Bakı: Gənc alimlərin Ali Məktəblərarası elmi konfransının tezisləri, BSU-nun nəşriyyatı, - 2001. - s.76-77.
4. İnsan özünütəsdiqinə dair bəzi mülahizələr // - Bakı: Tağıyev oxuları, BSU-nun nəşriyyatı, - 2002. - s. 216-217.
5. Fürye azadlıq haqqında. // - Bakı: Müdriklik yolları, Fəlsəfə elmləri doktoru professor Yusif İman oğlu Rüstəmovun anadan olmasının 70 illiyinə həsr olunmuş məcmuə, Mütərcim, - 2002. - s.214-219.
6. F. Nitsşe yaradıcılığında insan idealı //Bakı Slavyan Universiteti əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfrans məruzələrinin tezisləri, - Bakı: Bakı-BSU-nun "Kitab aləmi" nəşriyyatı, - 2004. - s. 241-242.
7. Heydər Əliyev və milli idealogiyanın formalaşması problemləri // "Qəlblərdə yaşayan ömür" Heydər Əliyevin vəfatının 1 illiyinə həsr olunmuş məqalələr toplusu, - Bakı: "Kitab aləmi", - 2004 - s.78-80
8. İnsan azadlığı və məsuliyyəti probleminə dair bəzi mülahizələr //- Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, İctimai və siyasi elmlər seriyası, - 2004. №1-2, - s. 67-80.
9. Qərb fəlsəfəsində azadlıq kateqoriyasının təkamülü problemi // - Bakı: "Elm və Cəmiyyət" (məqalələr toplusu) Bakı

Slavyan Universiteti “Kitab aləmi”, - 2004. № 4, - s.382-392.

10. İrrasionalizm fəlsəfəsində insan problemi // Bakı Slavyan Universiteti əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfrans məzurələrinin tezisləri, - Bakı: - 2005. - s.216-218.
11. Суфийский идеал личности и сверхчеловек Ф. Ницще // Философия и будущее цивилизации. Тезисы докладов и выступлений IV Российского философского когресса, В 5 т. Т. 2, Современные тетради, - Москва: - 24-28 мая - 2005. - с.172-173.
12. Sufi idealı və F. Nitşe Fövqəlimsanı (Müqayisəli paralellik) // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Mövlanə Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş Beynəlxalq Konfransın materialları. – Bakı: “Səda” nəşruyyatı, - 2006. - s.234-240.
13. XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasına təsir edən əsas amillər//Azərbaycanşünaslığın aktual problemləri, Ümummilli Lider Heydət Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfrans, - Bakı-Naxçıvan-Gəncə: - 3-8 may, - 2010. - s.555-559.
14. İnsan azadlığı və məsuliyyəti: Dini yanaşmanın özəllikləri// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. - Bakı: Mütərcim, - 2011. №1, - s.266-272.
15. Orta Əsrlərdə Azərbaycanda Siyası və sosial fikirlerin oluşmasına etki eden önümli faktörler (tasavvuf edebiyyatı kontekstinde)// Güney Kafkasya Halkları: Dil-tarixh-kültür ilişkileri uluslararası bilgi Söleni bildireileri. Ordu Üniversitesi sosyal Bilimler Enstitüsü, - Ordu: - 2011. - s.599-603.
16. Dini təlimlərdə şəxsiyyətin mənəvi azadlığı və məsuliyyəti probleminə dair// Azərbaycanşünaslığın aktual problemləri Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları, - Bakı:

- 01-04 may, - 2013. - s.502-505.
17. К вопросу о проблеме человека в различных религиозных системах и философских учениях // Сборник научных работ «Гилея: научный вестник», Под. Ред. В. М. Вашкевич, – Киев: «Издательство «Гилея», – 2015. Выпуск 94 (№3) - с.206 -210.
18. Antik dövr fəlsəfəsində əxlaqa müxtəlif yanaşmalar // “Ulu öndər Heydər Əliyevin irsində Multikultural və tolerant dəyərlər” Beynəlxalq Elmi Konfransın materialları, II hissə, - Bakı: - 3-5 may – 2016. - s.80-88.
19. Нравственно-религиозные ценности личности в трудах современных азербайджанских философов//Актуальнı проблемі фılософıı та соцıологı науково-практичний журнал, - Одесса: - 2018. Випуск-21, - s.84-87.
20. Orta əsrlər və yeni dövr fəlsəfəsində insan özünütəsdiqi probleminə dair// Azərbaycanşünaslığın aktual problemləri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə hsr olunmuş IX Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 3-4 may, - 2018. - s.530-533.
21. The problem of moral and religious of the personality in the works of Azerbaijani philosophers//WORLD SCIENCE Multidisciplinary Scientific Edition, -Warsaw: Polands – 2018. Vol. 6, March №3(31), - p.15-18.
22. Qloballaşan dünya və insanın dini - mənəvi özünütəsdiq problemi // Sustainble development and actual problems of humanitarian sciences, May -14-15 may, - 2018. - s.563-566.
23. Müxtəlif dini sistemlərdə xeyirxahlıq və rəhimlilik problemi // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu, Elmi Əsərlər Beynəlxalq elmi-nəzəri jurnal, - Bakı: - 2018. №2 (31) - s.282-289.
24. İslamda şəxsiyyətin mənəvi azadlığı və məsuliyyəti məsələlərinə dair//Bakı Slavyan Universiteti, Elmi Əsərlər ictimai-siyasi elmlər seriyası, - Bakı: - 2020. №1, - s.10-15.
25. Müxtəlif fəlsəfi sistemlərdə insan özünütəsdiqinə dair bəzi mülahizələr// Ulu öndər Heydər Əliyevin anadan olmasının

98-ci ildönümünə həsr olunmuş Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri. Beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: - 2021. - s.247-249.
26. Elmi və dini dünyagörüşü: qarşılıqlı təsirlərin ziddiyyətləri və dialektikası // - Bakı: Geostrategiya Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, - 2021. №05(65) – s.165-169.

Dissertasiyanın müdafiəsi "25" "yanvar" 2022-ci il tarixində saat "11⁰⁰-da" Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143.Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron variantları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" "dekabr" 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.12.2021

Kağızın formatı: A5

Həcm: 43048

Tiraj: 100